UOT 398; 801.8

# "DƏDƏ QORQUD" EPOSUNDA OĞUZLARIN EPİK ALƏMİ

**R.T.CAVADOVA**
***Bakı Dövlət Universiteti***
***cavadovarana@mail.ru***

*Məqalədə «Kitabi-Dədə Qorqud» eposunda oğuzların epik aləmindən bəhs olunur. Burada oğuzların adət-ənənələri, həyat tərzi və məişəti araşdırılır. Həmçinin müəllif məqalədə oğuz türklərini dünyanin ən qədim, həm də çox zəngin maddi və mənəvi mədəniyyət yaratmış xalqlarından biri kimi göstərir. Oğuz cəmiyyətində hər şey adət-ənənə ilə tənzim olunurdu. Adət-ənənələr oğuzların məişətində kök salmış mənəviyyat aktı kimi göstərilir.*

**Açar sözlər:** "Kitabi-Dədə Qorqud", epos, oğuzlar, dastan

Oğuz türkləri dünyanın ən qədim, həm də çox zəngin maddi və mənəvi mədəniyyət yaratmış xalqlarındandır. Mənəvi mədəniyyət dedikdə hər hansı bir xalqın dəyərləri nəzərdə tutulur. Milli dəyərləri şərtləndirən amillərdən biri də məhz adət-ənənələrdir. Oğuz cəmiyyətində hər şey adət-ənənə ilə tənzim olunurdu. Adət-ənənələr oğuzların məişətində kök salmış mənəviyyat aktıdır.

Adət-ənənələr xalqın gündəlik həyatında, məişətində oldugu tək, onun şifahi və yazılı irsində də yaşayır. Bu baxımdan Oğuz türklərinin həmçinin Azərbaycan xalqının maddi və mənəvi irsinin mənbəyi olan "Dədə Qorqud" eposu buna ən parlaq nümunədir.

"Kitabi-Dədə Qorqud" bizim milli mənəviyyatımızın qaynagı olaraq, mənəvi etik və estetik dəyərlərin vəhdətini özündə əks etdirən möhtəşəm sənət abidəsidir. Neçə-neçə yüzilliklərin keçməsinə baxmayaraq dastanda əks olunan adət-ənənələrin, etik normaların, yüksək əxlaqi məziyyətlərin əksəriyyəti indi də məişətimizdə yaşamaqdadır. Çünki ulu babalarımız, soydaşlarımız ənənəvi şüurla yaşamış, həmin milli dəyərləri göz bəbəkləri kimi qoruyaraq nəsillərdən-nəsillərə ötürmüşlər .

Ağsaqqalın, böyüyün sözünə, məsləhətlərinə hörmət etmək, qulaq asmaq xalqımızın mənəviyyatının tərkib hissəsi kimi zaman-zaman yaşayan dəyərli adət-ənənələrindəndir.

"Kitabi-Dədə Qorqud" dastanından da məlum olur ki, Oğuz tayfalarının müdrik el ağsaqqalı Dədə Qorquddur. Abidənin müqəddimə və boylarından aydın olur ki, Qorqud Ata oğuz xalqının kamil bilicisidir. Dastanın müqəddi-

məsində bildirilir: “Qorqud Ata Oğuz qövmünün müşkülünü həll edərdi. Hər nə iş olsa Qorqud Ataya danışmayınca işləməzlərdi. Hər nə ki, buyursa qəbul edərlərdi. Sözün tutub tamam edərlərdi” (1, 31). Qorqud Dədə Oğuz xalqının şad və dar günündə yanında olur, xeyirə, igidliyə tariflər deyir, pisliyi lənətləyir və nəyin yaxşı, nəyin pis oldugunu qiymətləndirmək haqqı məhz eposda ona məxsusdur. Həmçinin Qorqud Ata kəramət sahibidir, bir “vilayət issi”dir. III boyda Banı Çiçəyin qardaşı Dəli Qarcar Dədə Qorquda qılınc çalmaq istədikdə, Dədə ismi-əzəm oxuyub, Dəliyə “çalarsan, əlin qurusun!” dedi. Həq Təalanın əmri ilə Dəli Qarcarın əli yuqaruda asılı qaldı. Zira Dədə Qorqud vilayət issi idi, diləgi qəbul oldı” (2,56). Deməli Qorqud Atanın belə qüdrət, kəramət sahibi olduğundandır ki, hünərə görə igidlərə ad verir, bir ağsaqqal tək elçiliyə gedir, Oğuz elinə qənim kəsilən Təpəgöz yalnız onun sözünü eşidir.

Oğuz türk ailəsində valideyn böyük hörmət sahibidir, ailə məsələlərinin həlledicisidir. “Dədə Qorqud” eposunda ata-anaya hörmət etmək, qayğı-sayğı bəsləmək bu baxımdan adət-ənənə halındadır. Burada “Ana haqqı –Tanrı haqqı” sayılır. Dastanda anaya, qadına böyük ehtiram göstərilir. Dastan boyu bu keyfiyyət nəzərdən yayınmır. Ev-eşiyi əldən getmiş Qazan xan kafir Şöklü Məlikdən halalını, oğlunu, mal-mülkünü deyil, yalnız anasını istəyir. Qadının ərinə məsləkdaş, məsləhətçi olması dastan boyu diqqətimizdən yayınmır. Dastanda qadına hörmətlə yanaşı, atanın da sözündən çıxmamaq, dediklərini israrsız qəbul etmək adət-ənənə halında olur. Dastandan göründüyü kimi: “Ol zamanda oğul ata sözünü iki eləməzdi. İki eləsə, ol oğlanı qəbul eləməzlərdi” (2,71).

IV boyda Qazan xan yağıyla üz-üzə gələndə oğluna bir kənara çəkilib vuruşa tamaşa etmək, baxıb öyrənmək tapşırığını verir. Boydan oxuyuruq: “Uruz babasının sözin sımadı, qayıdıb gerü döndi”.

Oxucu eposun birinci sətrlərindən, son sətrlərinə qədər böyüklərlə kiçiklər, valideynlərlə-uşaqlar, kişilərlə-qadınlar arasında qarşılıqlı münasibətlərin necə gözəl qurulmasının şahidi olur. Ümumiyyətlə, oğuz etnosu davranış və rəftarlarında daxili və xarici münasibətlərində əxlaq prinsipinə əsaslanırdı.

Bu böyük-kiçik münasibətlərində əsas adətlərdən biri əl öpmədir. Boylarda əl öpmə adətinə ciddi yanaşılıb. Belə ki, ata dura-dura oğulun əlini öpmək ən azı qəbahət sayılıb. III boyda Baybörənin oğlu Bamsı Beyrək atasının bəzirganlarına hücum etmiş kafirləri məğlub edir. Bəzirganlar Baybörənin evinə təşrif buyuranda onları xilas etmiş oğlanı görcək, böyük dura-dura tez onun əlini öpürlər. “Bunlar böylə edicək Baybörənin acığı tutdu. Bəzirganlara aydır:”

- “Mərə qavat oğlu qavatlar, ata durukən oğlu əlini öpürlər?” (3,54)

Göründüyü kimi, bu etik normalar gözlənilmədikdə oğuzların ciddi etirazına səbəb olur. Boylardan aydın olur ki, kiçiklər böyüklərin əlindən, böyüklər də, öz növbələrində, onların boyunlarından öpürlər. Hal-hazırda bu günkü günümüzdə də kiçiklər ehtiram əlaməti olaraq böyuklərin əlindən öpürlər. Əl öpmə ilə bağlı adətin bir növü də maraq doğurur. Əgər bir kimsə öz səhvini başa düşüb qarşısındakının əlini öpərsə, onun günahından keçilir.

Bu adətin ən parlaq nümunəsinə biz IX boyda rast gəlirik. Ov mərasimində Bəkilin hünər və bacarığına nüfuzlu oğuz bəyləri şübhə ilə yanaşırlar. Bunu təhqir bilən Bəkil Bayandır və Qazan xandan küsür, baş alıb Oğuzdan köçmək niyyətinə düşür. Kafilərin casusu ov zamanı Bəkilin yaralandıgı xəbərini eşidib Şöklü Məliyə xəbər verir. Şöklü Məlik ələ düşən fürsəti bada verməyib, Bəkilin yurduna çapqina hazırlaşır. Yurdun təhlükədə oldugunu görən Bəkil Qazan xana olan umu-küsünü unudub oğluna deyir ki, oğul, dayanma tez get

Ağız-dildən Bayandır xana salam vergil!
Bəglər bəgi olan Qazanın əlini öpgil!
Ağ saqqalı babam bunulü-degil!
Əlbəttə və əlbəttə Qazan bəy mənə yetişsin dedi-degil.
Gəlməz olsa, məmləkət pozulub xarab olur,
Qızım-gəlinim əsir getdi, bəlli bilgil!-dedi" (3,109).

Təhlükə sovuşandan sonra Bəkil oğlu İmranı götürüb, Bayandır xanın divanına getdi, əl öpdi. "Padşah Qazan oğlu Uruzun sağ yanında ona yer göstərdi, cübbə-cuğa çırğab geyürdü" (3,109).

"Dədə Qorqud" eposundan bəlli olur ki, qonağa hörmət, ehtiram qutsal adət-ənənələrdən sayılıb və bu gün də sayılmaqdadır. Kimliyindən, necəliyindən asılı olmayaraq, qonaq gəldiyi evin əziz kimsəsi sayılıb.

Dastanda qonağa qaygı və saygı bəslənilib. Müqəddimədə "qonagı gəlməyən qara evlər yıqılsa, yeg!" -deyə qarğış söylənilib. Xanlar xanı Bayandır xan da ildə bir dəfə xüsusi mərasim keçirir. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirib Oğuz bəylərinə qonaqlıq verir. Eposda ozan arvadları dörd növə ayırır: "birisini nəsil korlayan, birisini toy dolduran, birisini evin dayağı, birisini də necə deyərlər, bayağı adlandırır. Oğuzlar evə gəlmiş qonağa etinasızlıq göstərən, onun qarşısına ədəb-ərkanla çıxmayan qadını bayağı adlandırmış, beləsinin bəbəkləri bitməsin, yəni övladları doğulmasın söyləmişlər. Onlar o qadını evin dayağı bilmişlər ki, yazıdan-yabıdan evə bir qonaq gəlsə, ər adam evdə olmasa, ol onu yedirər, içirər, əzizlər, sonra da xətir-hörmətlə yola salar. Beləsi barəsində ozan deyir: Onun bəbəkləri bitsün. Ocağına bunun kimi övrət gəlsün..." (3, 33)

"Kitabi-Dədə Qorqud"dan bu da bəlli olur ki, Oğuz cəmiyyətində ziyafətlərin, toy-düyünlərin, yığıncaqların təşkili ənənəvi sayılmışdır. Yuxarıda qeyd edildiyi kimi, Bayandır xan ildə bir neçə dəfə ziyafət və qurultaylar təşkil edərdi. Ümumiyyətlə, adlı-sanlı oğuz bəyləri tez-tez məclis qurdurub, oğuz bəylərini ətrafına toplayar, yeyib-içər və qopuz çalıb bir-birlərini tərifləyərdilər. Adəti üzrə hər il Qazan xan belə məclis təşkil edib iç və dış oğuz bəylərini ətrafına toplayar, evini yağma elətdirər, qiymətli mal-mülkünü bölüşdürərdi. Bu kimi yığıncaqlarda bəylərin, nüfuza görə el və ya tayfa başçısının sağında, yaxud solunda oturması ənənəsi dastanda geniş əks olunub və bu adətə əməl etmə ciddi səciyyə daşıyır. Qalın Oğuz yurdunun xanı Bayandır xanın divanında, həmçinin oğuz igidlərinin başçısı Salur Qazanın məclisində hər kəsin özünəməxsus yerdə oturma adəti vardır. Belə ki, bu kəslər öz oturduqları yeri

göstərdikləri hünər, igidlik, səxavət və nüfuzları ilə qazanarmışlar. X boyda göstərilir ki, ”Uşun Qocanın oğlu Əyrək istədiyi vaxt Bayandır xanın divanına gələr, ağına-bozuna baxmadan keçib yuxarı başda əyləşərdi”. Yenə burada deyilir ki, “bəglər bəgi olan Qazan divanında buna heç qapu-baca yoğdı. Bəgləri basub, Qazan ögində oturardı. Kimsəyə iltifat eyləməzdi”. Təbii ki, Əyrəyin bu hərəkətinə, oğuz igidləri irad tuturlar. Oğuzda: Tərs Uzamış adlı bir yigit məclisdə Əyrəyə aydır: “Mərə Uşun Qoca oğlı, bu oturan bəglər hər biri oturduğu yeri qılıcilə, əkməgilə alubdur. Mərə, sən başumı kəsdin, qanmı tökdin, acmı toyurdun, yalıncığmı tonatdın!”

Bu adətə yenə IV boyda rast gəlirik. Yemək-içmək məclisi qurduran Qazan xanın sağında qardaşı Qaragünə, solunda dayısı Aruz əyləşib, qarşısında isə oğlu Uruz özünə yer tutub. Qazan xan sağ-soluna baxıb gülür, qarşısına oğluna baxanda isə ağlayır. Uruz atasının bu hərəkətindən pərişan olur, səbəbini atasından soruşur:

Sağına baxdın qah-qahla güldün<br>
Soluna baxdın, çox sevindin.<br>
Qarşıya baxdın, məni görüb ağladın<br>
Səbəbi nədir, söylə mənə,<br>
Qara başım qurban olsun, ata, sənə!”

Qazan xan oğluna cavab verir ki, “sağıma baxdım qardaşım Qaragünəni gördüm, baş kəsib, qan tökübdür. Sol tərəfə baxdıqda dayım Aruzu gördüm, baş kəsib, qan tökübdür. Haqqın alıb, ad qazanıbdır. Qarşıma baxanda səni gördüm, on altı yaşın oldu, yay çəkməyibsən, ox atmayıbsan, baş kəsib, qan tökməyibsən. Qalın Oğuz yurdundan bir mükafat almayıbsan. Sabahkı gün vaxt gələr, mən ölüb sən qalanda birdən taxt-tacımı sənə verməzlər, deyə sonumu andım, ağladım oğul! Dedi”

Qəhrəmanlığın erkən yaşlardan üzə çıxmaması Oğuz yurdunda erkək üçün böyük qəbahətdir. Bu cəmiyyətdə oğulun ad alması, onun özünü cəmiyyətə tanıtması, təqdim etməsi kimi səciyyələnir. Beləliklə, Uruzun ad qazanması gecikir və atası Qazan xan bu münasibətlə əndişələnib, gileylənir və qarşısında oğlunun yer tutmağa layiq olmamasını bildirir.

Oğuz cəmiyyətində ailədə övladın olub-olmaması diqqət mərkəzindədir. Dastan məhz övlad problemi ilə başlayır. Adəti üzrə Bayandır xan yığıncaq təşkil edir və buyuruq verir ki, bir yerdə ağ, bir yerdə qırmızı, bir yerdə də qara otaq qurdurun. Sonra Oğuz xaqanı göstəriş verir ki, oğlu olanlar ağ, qızı olanlar qırmızı, övladı olmayanlar isə qara otaqda oturdulsunlar.

“Kimin oğlu-qızı yoxdursa, qara otaqda oturdun, altına qara keçə döşəyin, önünə qara qoyun ətinin qovurmasından gətirin. Yeyir-yesin, yemirsə, dursun getsin, övladı olmayanları Allah qarğayıbdır, biz də qarğayırıq”. Deməli, o zamandan övladsızlıq dövlətin ən böyük çatışmazlığıdır. Yəni övladsızlıq, oğlu-qızı olmamaq oğuz cəmiyyətində heç də müsbət qarşılanmır. Nəzir-niyaz sayəsində, xeyirxah işlərin görülməsi yolu ilə alqış-duanın müstəcəb olması nəticəsində övladsız valideynlərin uşaqları doğulur. Övlad ailəni

cəmiyyətlə bağlayan ən mühüm vasitəsidir. Ivboyda Baybörə deyir: “Mənim dəxi oğlum olsa xan Bayandırın qarşusun alsa-dursa, qulluq eyləsə, mən dəxi baqsam, sevinsəm”. Baybörə bəyin ağlamağının bir səbəbi də odur ki, öləndə yurduna sahib qalmır. Bu məsələlər ilə bağlı dastanın muqəddiməsində oğuzların atalar sözü işlənilmişdir “Oğul atanın yetiridir, iki gözinin biridir, Ata adın yürüdəndə dövlətlə oğul yeg!” deyə nəsihətamiz fikirlər deyilmişdir.

Böyüyən hər bir oğuz övladı ənənəyə əsaslanaraq at çapmağı, ox atmağı, qılınc oynatmağı hökmən öyrənməlidir. Oğuz övladı bu məharətləri ilə yanaşı gözəl əxlaqi keyfiyyətlərə də malikdir. Belə ki, oğuz övladının fiziki, əqli, etik və estetik tərbiyəsi vəhdətdə aparılır.

“Kitabi-Dədə Qorqud”dastanından aydın olur ki, uşaqlıqdan igidliyə keçmə dövrü on beş, on altı yaş həddində baş verir. Bu yaş həddinə çatan oğlan mütləq bir hünər göstərməli və igid adını qazanmalıdır. Uşaqlıq dövründən alplıq dövrünə keçidlə bağlı adqoyma mərasiminin maraqlı örnəklərinə abidənin I, III, VIII boylarında rast gəlirik. Dastanda advermə baş kəsib, qan tökməklə, hünər göstərən oğlanlara təqdim olunur. Dastanda adqoyma Qorqud Atanın funksiyasıdır yəni igidlərə adı vermək Qorqud Dədəyə həvalə edilmişdir. Dədə Qorqud igidlərə adı, hünər və şücaətlərinə uyğun olaraq qoyur. Bununla yanaşı Dədə Qorqud ad verdiyi igidlərin hünərlərini nəzərə çatdırmağı, onlara uğur-alqış diləməyi, atalarından bu ad qoyulanlara bəylik, taxt, yaşayış tələb etməyi də unutmur.

Adqoyma mərasiminə ilk olaraq abidənin I “Dirsə xan oğlu Buğac xan boyu”nda rast gəlmək mümkündür. Bu boyda nəql olunur ki, Bayandır xanın bir buğası və bir də buğrası var idi. Bayandır xan bir dəfə yazda, bir dəfə də payızda ağ meydanında bunları döyüşdürər, özü də oğuz bəyləri ilə tamaşa edib, əylənərdi. Belə günlərin birində Dirsə xanın on beş yaşlı oğlu meydanda üç uşaqla aşıq-aşıq oynadıqları zaman buğanı oraya buraxırlar və uşaqlara qaçın xəbərdarlığı edirlər. Uşaqlar qaçsa da, Dirsə xanın oğlu yerindən tərpənmir. Üstünə hücum edən buğa ilə döyüşüb, onu öldürür. Oğuz bəyləri oğlanda bu hünəri görüb, ona “əhsən” deyirlər və Dədə Qorqud gəlib bu oğlana ad qoyur.

Dədə Qorqud bu hünərə görə oğlana “Buğac” adını verir, həmçinin oğlana atasından bəylik və mal-mülk də alıb verir. “Bu ad oğlanın alplıq adıdır. Ad alan hər bir gənc artıq Oğuz cəmiyyətinin bərabərhüquqlu üzvünə çevrilir, həm də adına layiq yaşamalı olur”. Hünərə görə adqoymanın bariz nümunəsinə III “Baybörənin oğlu Bamsı Beyrək boyu”nda da rast gəlirik. Baybörə oğlu on altı yaşlı Bamsı tacirlərin üzərinə hücum edən yağılarla döyüşür. Baş kəsib, qan tökür, yağıları öldürüb cəzalarına çatdırır, tacirləri və onların mallarını kafirlərdən xilas edir. Boz oğlanın bu qoçaqlığı Qalın Oğuza yayılır. Dədə Qorqud gəlib oğlana “Beyrək”adını verir. Yeniyetmələrin alplıq adı almaqları şərəfinə onların valideynləri ağır ziyafətlər təşkil edib, oğuz bəylərini qonaqlayardılar. Bu kimi yığıncaqlarda Dədə Qorqud ad qoyduğu igidlərə təriflər deyib, xeyir-dua verir. Qorqud Dədə “Buğac”bəy və “Boz ayğırlı Bamsı Beyrək”lə yanaşı, VIII boyda Aruz Qocanın aslan yatağında böyümüş oğluna da

“Basat”adını verir. Ad almış qəhrəmanlar adlarına uyğun hərəkət edir, ada layiq yaşayır. Bu igidlərin sonrakı həyatı, qadasız, qovğasız, savaşsız keçmir.

“Oğuzların həyat tərzi” Oğuz türkləri başlıca olaraq yarımköçəri və oturaq həyat tərzi keçirirlər. Onlarda oturaqlığa və köçəriliyə məxsus təsərrüfat sahələri güclü tərəqqi etmişdir. Köçəriliklə bağlı oğuzların ov adətləri və ov mərasimləri diqqətimizi daha çox cəlb edir. “Oğuzlar ova böyük əhəmiyyət vermiş, ovu bir növ igidliyi, bacarığı yoxlamaq üçün məşq hesab etmişlər. Bu baxımdan dastanda ov və ovçuluq qəhrəmanların əsas əyləncə, istirahət, məşğuliyyət növüdür (4, 281, 282). Abidənin boylarından göründüyü kimi, şölən, döyüş, ov səhnələri tez-tez, bir-birini əvəz edir. Oğuzlarda ov mərasiminin ciddi qanun-qaydaları vardır və bu qanun-qaydalar dastanın qəhrəmanları tərəfindən qorunur.

Abidənin I boyunda görünür ki, ailənin böyüyü ata dura-dura, oğulun ova çıxması qadağandır. Dirsə xanın qırx namərd yoldaşı yalandan ona xəbər verirlər ki, “Qalqubani Dirsə xan, sənin oğlun yerindən uru durdu, köksi gözəl qaba dağa ava çıqdı. Sən var ikən av avladı, quş quşladı” misalı buna ən bariz nümunədir. Bu etik əxlaqi normanın pozulması hətta ölümlə belə cəzalandırılır. Dirsə xanın oğlu Buğacın paxıllığını qırx yoldaşı çəkirdi. Belə ki, qırx namərd onun gücünə, adına, çevikliyinə həsəd aparırdı. Qırx namərdin fitnəsi ilə Dirsə xan oğlunu götürüb ova çıxır. Bu ov Buğacın ilk ovudur. Hələ o ov adətinin ciddi qaydalarından xəbərsizdir. Buğac bu igidlərin sözü ilə keyikləri qovub gətirir atasının qarşısına. Atasını məharətli hərəkətləri ilə sevindirmək istəyir. Oğlunun bu hərəkəti Dirsə xanı qəzəbləndirir və oxu ilə oğlunu ölümcül yaralayır.

“Dədə Qorqud” eposunda ov və ovçuluq kültüroloği adət olduğundan ilk ovun şərəfinə xüsusi mərasim təşkil olunur. Bu halda ata artıq yetkinlik yaşına çatmış oğlunun hərbi biliyini yoxlamaq məqsədi ilə onun şərəfinə ilk ov səhnəsi keçirir. Bu münasibətlə keçirilən ovda Oğuz bəylərinin əksəriyyəti iştirak edir. “Həmin ovda ata oğula döyüşün sirlərini heyvanların üzərində öyrədir. O, oğlunun ox və kəmənd atmasına, at çapmasına, pusqu qurmasına, çevikliyinə tamaşa edir, onun bir döyüşçü kimi yetişməsini qiymətləndirir. Yetgin oğlanın ilk ov şərəfinə ümumtayfa şənliyi keçirir” (4, 282). Bunun parlaq nümunəsi ilə biz I və IV boyda qarşılaşırıq. I boyda Buğacın anası, IV boyda Uruzun anası Burla xatun oğlancığının ilk ov mərasiminə xüsusi hazırlıq görür.

“Qazan bəy oğlu Uruzu ilk dəfə özü ilə ova aparanda boyu uzun Burla xatun atdan ayqırlar, dəvədən buğra, qoyundan qoç qırdırdı. Oğlancığımın ilk avıdır, -Qanlu Oğuz bəglərin toylayayım, dedi” (4, 281). Abidədə Dirsə xanın, Qazan xanın, Bəkilin ov səhnələri maraq doğurur. Qazan xan oğlu Uruzu götürüb ova çıxır. Ovçuluğun bütün sirləri ilə oğlunu hali edir. Oğuzlarda başqasının ovunu vurmaq, həmçinin yaralı heyvanı ovlamaq qadağan sayılır. Dastanın IX boyunda Bəkilin mahir ovçu olduğu faktı ilə qarşılaşırıq. “Bəkil yay qurmaz, ox atmazdı, elə yayı biləyindən çıxarıb, buğanın-sığının boynuna atardı, çəkib durğuzardı. Arıq olsa, qulağını dələrdi ki, ovda bəlli olsun. Amma kök

olsa, boğazlayıb kəsərdi. Bəylər qulağı dəlik keyik ovlayanda, bu Bəkilin nişan etdiyidir deyə, özünə göndərərdilər" (3, 202). Dastanın II və IX boylarında ovun pozulması yasaqlığına da rast gəlinir. Ovun pozulmaması, daha doğrusu, qadağanın qorunmasına əməl "Bəkil oğlu Əmranın boyu"nda qabarıq verilmişdir. Ovda ayağı sınmış Bəkil ovun pozulmaması üçün bunu heç kimə demədən, geriyə evinə qayıdır. II boyda da bu baxımdan çox səciyyəvidir.

Məişəti. Yer üzündə adətsiz, ənənəsiz, düyünsüz, matəmsiz, bayramsız millət yoxdur. Həmçinin sevincsiz və kədərsiz insan da təsəvvür etmək mümkün deyil, insan sevinirsə gülür, kədərlənirsə ağlayır. Məhz bütün adət və ənənələr, mərasimlər, ayinlər insanların bu əzəli xüsusiyyətləri ilə bağlı meydana çıxmışdır. Evlənmə mərasiminin sevincini özündə birləşdirən "toy" Dədə Qorqud eposunda xalqın dünyagörüşü, məişəti, adət-ənənəsilə bağlıdır. Dastanımızda əks olunan müqəddəs toy adətləri bu gün də öz paklığını qorumaqdadır. Abidə rəngarəng, dolğun, maraq doğuran toy adətləri ilə zəngindir.

"Oğuz ailə quruculuğunda valideynin xeyir-duası, razılığı, bəylə-gəlinin bir-birini bəyənməsi əsas şərtlərdən biridir" Dastanın III "Baybörənin oğlu Bamsı Beyrək boyu"nda toy adətlərinin mühüm incəliklərinə, mərhələlərinə rast gəlirik. Oğuz bəylərinin duası ilə Allahdan oğul istəyən Baybörə, qız diləyən Baybecan duaları baş tutarsa, gələcək övladlarını "göbəkkəsmə-adaxlı" edəcəklərinə söz verirlər. Qədimdən indiyədək "Qız adeləmə", "Qızgörmə", "Qızbəyənmə", "Qızseçmə" toyun ilkin mərhələsi sayılıb. Adətən valideynlər çalışırlar ki, öz sağlıqlarında övladlarını evləndirsinlər, ev-eşik sahibi etsinlər. Qədim dövrdə də, valideynlər bu arzu ilə yaşamışlar. Bunun ən gözəl nümunəsi VI "qanlı Qoca oğlu Qanturalı boyu"nda ifadə olunmuşdur. Qanlı Qoca oğlunun evlənməməsi üçün narahatdır. O, oğlunu evləndirmək üçün elin ağsaqqal bəylərini yanına alıb, Oğuzu və Oğuzdan kənar yerləri dolaşıb oğluna layiq qız axtarır. Abidədə bu hal da, maraq doğurur ki, evlənəcək oğuz qəhrəmanı özü kimi qoçaq, mətin bir qızla evlənməkarzusundadır. Biz bu istək ilə III və VI boyda üzləşirik. III boyda Beyrək atasına deyir: "Mənə elə qız al ver ki, mən yerimdən durmadan, o durmuş olsun, mən qaracıq atıma minmədən, o minmiş olsun, mən döyüşə getməmiş o mənə baş gətirsin" (3,153). Oğuz elinin dörd üzü niqablı igidlərindən ikisi Beyrəklə, Qanturalı özləri qız görməyə, seçib-sevməyə gedirlər. Uşaqlıqdan göbəkkəsmə adaxlı olan Beyrəklə Banıçiçək görüşürlər. Onlar bir-birlərini sınamamış tanışlıq vermirlər. Bu sınaqdan iki nişanlı at yarışı, ox atma, güləşmə mərhələsi keçirir. Bu yarışmada Beyrək üstün gəlir və yalnız bundan sonra Banıçiçək tanışlıq verir. Baybörə bəy ilə Baybecan bəyin razılığı öz yerində, onlar da bir-birini bəyənib qəbul edirlər. Beyrək qızıl üzüyünü barmağından çıxarıb, Baanıçiçəyin barmağına taxır, "bu üzük aramızda nişan olsun" deyir.

Dastanımızda adaxlı, nişanlı həm də sədaqət rəmzidir. Banıçiçək Beyrəyi on altı il gözləyir. Qız adeləmədən sonra "elçilik" toy mərasiminin ən ciddi mərhələsidir, Baybörə bəy Baybecan bəyin qızını oğluna istəmək üçün bu xeyirli işin icrasını Oğuzun ağsaqqalı Qorqud Dədəyə həvalə edir. Banıçiçəyi

qardaşı Dəli Qarcar Beyrəyə ərə verdikdən sonra, bəy tərəfindən, Dədə Qorquddan “başlıq” tələb edir. Baybörə bəy onun tələbini yerinə yetirib xeyli mal-heyvanı qız evinə göndərir. Alıb-vermədən sonra “toy-düyün” tədarükü görülür. Abidədən görünür ki, oğuzlarda düyün mərasimi kiçik və böyük olaraq iki yerə bölünür. Kiçik düyün nişan, böyük düyün isə toy anlamındadır.

“Toy mərasimində evlənən igid ox atardı, ox düşən yerdə gərdəyini qurardı. Beyrək də ox atır, oxu düşdüyü yerdə gəlin otağı qurdurur”. Bu adətlə yanaşı düyündə ox yarışı da keçirilir. Burada evlənən igidin nişan üzüyündən toya gələn bəylər ox keçirərdilər. Bu ox yarışı həm şənlik, həm də sınaq xarakteri daşıyır. Düyün günü nişanlı qızdan, evlənən oğlana bəylik bir hədiyyə gəlir. Banıçiçək Beyrəyə qırmızı qaftan göndərir. Dastanın boylarında toy adəti ilə bağlı bir sıra incə mətləblərlə qarşılaşırıq.

Məişət mərasimləri sırasında “yas” mərasimi ölümlə bağlıdır. Biz eposda ölüm və ölüyə münasibətinə bir çox cizgiləri ilə qarşılaşırıq. Abidənin qəhrəmanları olan müsəlman oğuzları əcəl vaxtına, behişt və axirət dünyasına sidq ürəklə inanırlar. Dədə Qorqud boy boyladıqdan sonra deyir:

“Hamı dediyim bəy ərənlər,
Dünya mənimdir deyənlər?
Əcəl aldı yer gizlədi,
Fani dünya kimə qaldı?
Gəlimli gedimli dünya, son ucu ölümlü dünya” (3, 156).

Biz yas mərasiminin ayinləri ilə III və XII boyda qarşılaşırıq. III boyda Beyrəyin atası, böyük çalmasını götürüb yerə çırpdı, dartdı yaxasını yırtdı. “Oğul, Oğul!” deyib, zırıldadı. Bu nəzərdə yas mərasiminin ilki şivən ayinidir. Bu ayinə III boyda daha geniş rast gəlirik. Ölüsü ölən adamlar, yanıqlı sözlərlə, oxşamalarla, hönkür-hönkür ağlayıb, üz cırıb, saç yolurlar. Baybörənin hündür tağlı evinə şivən düşdü. Ağ çıxarıb, qara geyinib, göy sarındılar. Baybörənin qız-gəlininin qəhqəhəli gülüşü kəsildi, ağ əllərə qızıl xına yaxmadılar. Oğuz bəyləri qara geyinib, göy sarınıb Beyrək üçün yas tutdular”

İgidin ölümü ilə bağlı oğuzların məişətində “At quyruğu kəsmə” adəti də var. Belə ki, qəhrəmanın şəhidliyi ilə bağlı mütləq atının quyruğu kəsilməlidir. XII boyda ölümcül yaralanan Bamsı Beyrək igidlərinə deyir:

“İgidlərim yerinizdən, qalxın durun!
Boz atımın quyruğunu, tutun kəsin” (3, 223)

“Yas mərasimi ilə bağlı bir cəhət də ölümqabağı vəsiyyətdir. Vəsiyyət ölən kimsənin öz nigarançılığından qurtarması istək və arzularını qalanlara bildirmə məqamıdır” (1, 126). Dastanda biz üç dəfə vəsiyyətlə qarşılaşırıq. Bunlardan biri IV boyda Uruzun atasına etdiyi vəsiyyət, ikinci vəsiyyət V boyda Dəli Domrulun qadınına etdiyi vəsiyyəti, üçüncüsü isə XII boyda Beyrəyin igidlərinə etdiyi vəsiyyət. Dastan boyu “qanalma” adətinə də rast gəlmək mümkündür. Bu adətə II, VIII və XII boy misal ola bilər. II boyda qaraca Çoban iki qardaşının qanını almaq üçün yağı ilə döyüşə atılır. VIII boyda Basat qardaşı Qıyan Səlcuqun, həmçinin oğuz bəylərinin qanını Təpəgözdə

qoymur. XII boyda Beyrək igidlərindən tələb edir ki, "Qazan xana çatdırın ki, mənim qanımı dayısı Aruzda qoymasın, əgər qoyarsa, sabah axirət günündə mənim əlim onun yaxasında olacaq" Beyrəyin vəsiyyətinə əməl etmə uğrunda Qazan xan başda olmaqla İç Oğuzla, Dış Oğuz ölüm-dirim savaşına qalxır. Qazan xan Beyrəyin vəsiyyətinə əməl edib, günahsız qanı yerdə qoymur, dayısı Aruzu öldürür.

...Yas mərasimi içərisində ehsan vermək də mühüm yer tutur. Ölənin ruhu şad olsun deyə, onun ruhuna ağır ehsan verilir. Həmçinin şəhid qəhrəmanın öz atını da kəsib ehsanını verirlər. IV boyda Uruz atasına vəsiyyət edir ki, Oğuza dönməsən, anam ayğır atımı kəsdirib, aşımı versin.

... "Kitabi-Dədə Qorqud" eposundakı çoxsaylı adət-ənənələr bu gün də xalqımızın məişətində əsas yer tutur. Bu ənənələrin qorunaraq gələcək nəsillərə ötürülməsi, insanların yaddaşlarında daim yaşaması üçün məhz bu günümüzdə də həmin adətlərin məişətimizə daha çox daxil edilməsindən asılıdır.

**ƏDƏBİYYAT**


1. B.Abdulla."Kitabi Dədə Qorqud"un poetikası. Bakı: Yazıcı, 1999, 361 s.
2. F.Bayat ."Oğuz epik ənənəsi" və "Oğuz Kağan"dastanı. Bakı: Yazıcı, 1993, 244 s.
3. "Kitabi Dədə Qorqud". Bakı: Marif, 1988, 265 s.
4. "Dədə Qorqud kitabı" Bakı: Elm, 2004, 305 s.


## ЭПИЧЕСКИЙ МИР ОГУЗОВ В ЭПОСЕ «ДЕДЕ КОРКУД»


**Р.Т.ДЖАВАДОВА**


**РЕЗЮМЕ**


В статье рассматривается эпическая жизнь огузов. Здесь исследуются традиции, быт и образ жизни огузов. Автор в статье показывает огузских турков как одних из древних народов создавших нравственные, материальные и культурные ценности. Нравственные традиции огузов это укоренившийся показатель огузских племен.



**Ключевые слова:** «Китаби-Деде Коркуд», эпос, огузы, дастан


## THE EPIC WORLD OF THE OGHUZS IN "DEDE GORGUD" EPOS


**R.T.JAVADOVA**


**SUMMARY**


The article deals with the epic elements of Oghuz people in the epic book "Kitaby-Dede Gorgud". The author illustrates Oghuz people's customs and traditions, their lifestyle, and family life in the article. He also emphasizes that Oghuz Turks are one of the ancient people living on the earth. Oghuz social life was ruled by traditions and customs. The author demonstrates that traditions and customs had deep roots in their ancient society.



**Key words:** "Dede Gorgud", epic, oghuz, dastans